# Azərbaycan və Özbəkistanın energetika sektorunun perspektivləri müzakirə olunub

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistanın Yenidənqurma və İnkişaf Fondunun direktoru Şuxrat Vafayevlə görüşüb. Trend xəbər verir ki, bu barədə nazir "X" sosial şəbəkəsində paylaşım edib.**



"Özbəkistana işgüzar səfərimiz çərçivəsində bu ölkənin Yenidənqurma və İnkişaf Fondunun direktoru Şuxrat Vafayev ilə ölkələrimizin birgə həyata keçirdiyi layihələrin perspektivləri, Azərbaycan - Özbəkistan İnvestisiya Şirkətinin fəaliyyəti, sənaye, hasilat, rəqəmsallaşma, turizm və infrastruktur sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları barədə fikir mübadiləsi apardıq", - o qeyd edib.

Azərbaycan.- 2024.- 2 may, № 89.- S.16.